**Azərbaycan Turizm Bürosu PHŞ-nin balansında olan "MİTSUBİSHİ PAJERO SPORT" və "MİTSUBİSHİ L200 PİKAP" markalı nəqliyyat vasitələrinə texniki xidmətin göstərilməsi xidmətlərinin satın alınması məqsədilə**

**AÇIQ TENDER ELAN EDİR**

Açıq tenderdə iddiaçı qismində ixtisaslı işçi heyətinə malik mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https//www.etender.gov.az/ vahid internet portalına (portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını (ASAN ödəniş vasitəsilə) elektron portalda göstərilmiş hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər:

Tenderdə iştirak haqqı 37.50 manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (ASAN ödəniş);
2. tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
4. Təchizatçı haqqında:

a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;

b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;

c. birgə fəaliyyət göstərdikdə birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu;

Təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış:

a. Hüquqi və fiziki şəxs olduqda (FORMA 5) və (və ya)

b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (FORMA 6)

Təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.

Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış (FORMA 8)

5. Lisenziya - Satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya və (və ya) icazənin surəti;
6. Əmlakdan sərbəst istifadə - Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış (FORMA 1),
7. Müflislik - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış;
8. Vergi və əmək qanunvericiliyi öhdəliyi - Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış;
9. Fəaliyyət qadağası - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış;
10. Məhkumluq - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış;
11. Peşəkarlıq və təcrübə - Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış (FORMA 7), məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.);

12. Maliyyə imkanı-Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olmasına dair Əsas Şərtlər Toplusunda nəzərdə tutulmuş sənədlər;

13. Texniki imkan - Təchizatçının özü tərəfindən hazırlanmış arayış və təsdiqedici sənədlər (nəqliyyat vasitəsinin, maşın mexanizminin qeydiyyat şəhadətnaməsi, icarə, lizinq müqaviləsi və s.);

14. İşçi qüvvəsi - Təchizatçının özü tərəfindən hazırlanmış arayış (FORMA 4), məlumat və təsdiqedici sənədlər;

15. Digər sənədlər (tenderin şərtlər toplusunda göstərilən bütün digər sənədlər). Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Mətnlər arasında fərq aşkar olunarsa, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Yerinə yetiriləcək xidmətlərin siyahısı aşağıdakı kimidir:

1. Azərbaycan Turizm Bürosu PHŞ-nin balansında olan “MİTSUBİSHİ PAJERO SPORT” və “MİTSUBİSHİ L200 PİKAP” markalı nəqliyyat vasitələrinə texniki xidmətin göstərilməsi xidmətlərinin satın alınması.

Tenderlə əlaqədar istənilən məlumatı almaq üçün aşağıdakı şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs – Mehman Bayramov.
Ünvan – Bakı şəhəri, Ü.Hacıbəyli 134, 4-cü mərtəbə. Telefon- +994125058704 (əlavə 2304); Faks: +994124920592.
E-mail: mehman.bayramov@tourism.gov.az

İddiaçılar öz təkliflərini şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak üçün sənədləri (tender təklifi və təklifin bank təminatı daxil olmaqla) 27 iyul 2026-cı il saat 17.45-dək portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların tender təkliflərinin açılışı 27 iyul 2026-cı il saat 17.45-də dövlət satınalmalarının vahid internet portalında virtual iclas formatında aparılacaqdır. Elektron satınalmanın hər bir iştirakçısı onların təkliflərinin açılışını və qiymətləndirilməsini elektron portal vasitəsilə izləyə bilər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.

**Satınalma komissiyası**